# "Oğuz" kiçik su-elektrik stansiyaları silsiləsi istismara verilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su-elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına kiçik su-elektrik stansiyaları haqqında məlumat verdi.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinin əhatəsinin genişləndirilməsi, azalmaqda olan su ehtiyatlarından səmərəli istifadə, təbii qaza qənaət, ətraf mühitin qorunması və "yaşıl enerji"nin prioritet istiqamət seçilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tələblərə uyğun olaraq "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Oğuz rayonunun Daşağıl çayı üzərində 5 kilometr məsafədə kaskad üsulla 3 yerdə ümumi gücü 3,6 meqavat olan kiçik su-elektrik stansiyasından ibarət hidroqovşaq yaradılıb, bu stansiyalarda ümumilikdə 8 hidroaqreqat quraşdırılıb. Baş Daşağıl kəndində hər üç stansiyanın mənbəyi olaraq suqəbuledici və sel sularının ötürülməsi üçün sutullayıcı qurğu inşa edilib. Bu qurğunun yaradılması "yaşıl enerji"nin istehsalı ilə yanaşı, rayonun su təchizatına da töhfəsini verib.

Qeyd edildi ki, pilləli üsulla tikilən üç kiçik su-elektrik stansiyasında il ərzində 15 milyon kilovat-saatadək elektrik enerjisinin alınması mümkündür. Əhalisi 44 min nəfər olan Oğuz rayonunun enerji tələbatı 5-6 meqavat təşkil edir ki, mövsümi olaraq onun yarı hissəsini məhz bu elektrik stansiyaları qarşılaya biləcək. Ekoloji cəhətdən daha təmiz və qənaətli enerji istehsal edəcək "Oğuz" kiçik su-elektrik stansiyaları silsiləsinin istismara verilməsi regionda yeni iş yerlərinin açılması ilə yanaşı, "yaşıl enerji" nisbətinin bir qədər də yüksəlməsinə səbəb olub.

Məlumat verildi ki, hər üç elektrik stansiyası rəqəmsal qaydada "Azərenerji"nin SCADA dispetçer sisteminə qoşularaq Azərbaycanın ümumi enerji sisteminə inteqrasiya edilib.

Dövlət başçısı elektrik stansiyalarını işə saldı.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin "yaşıl enerji" strategiyasına uyğun olaraq son 2 ildə ölkəmizin istər işğaldan azad edilən, istərsə də digər ərazilərində ümumi gücü 50 meqavatdan artıq olan 14 kiçik su-elektrik stansiyası yaradılıb və yaradılmaqdadır.





Azərbaycan.- 2022.-3 dekabr.- S.5.